Azərbaycan Respublikası
Əmək və Əhalinin
Sosial Müdafiəsi Nazirliyi

## 2025-ci ilin yekunlarına dair

# HESABAT

BAKI, AZƏRBAYCAN
2026



**"Son yeddi il ərzində 5 sosial islahat paketi icra edilmişdir. Bu islahatların əhatə dairəsi 4 milyon insandır və təqribən 8 milyard manata yaxın olan vəsaitdir. Təkcə keçən il 1,4 milyard büdcə vəsaiti bu məqsədlər üçün xərclənib. Yəni maaşlar, pensiyalar, müavinətlər müntəzəm olaraq artırılır, pensiyalar indeksləşdirilir. Biz bir neçə ildir ki, özünüməşğulluq proqramı ilə məşğuluq, əgər belə demək mümkündürsə və 100 mindən çox insan bu proqramla əhatə olunub."**

***İLHAM ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# BEYNƏLXALQ MÜKAFATLAR və SERTİFİKATLAR - 108

- Dövlət xidmətlərinin «ASAN xidmət indeksi» üzrə qiymətləndirilməsində 3 il ardıcıl olaraq **1-ci yer** (2022-ci il, 2023-cü il və 2024-cü il);
- Rəqəmsallaşma — **32 beynəlxalq mükafat və sertifikat:** ("Ən yaxşı pensiya texnologiyası həlli", "İlin transformasiya qurumu", "Çeviklik", "İnnovasiyada mükəmməllik", "Texnologiyanın tətbiqində mükəmməllik", "Avropanın ən yaxşı rəqəmsal mərkəzi", "Elektron məşğulluq", "Elektron səhiyyə" mükafatları, 1 İESE sertifikatı və s.);
- DƏMX — **29 beynəlxalq mükafat və sertifikat:** ("2025-ci ildə Bizneslərin inkişafına ən yaxşı dəstəkçi (əmək münasibətlərində)", "Asiyanın Ən Yaxşı Dövlət Əmək Müfəttişliyi Xidməti Mükafatı", "Korporativ Sosial Məsuliyyət", "İlin Əmək Müfəttişliyi Xidməti", "Rəqəmsal İnnovasiya", "Government Technology", "Green Technology" mükafatları, 1 İESE sertifikatı və s.);
- DSMF — **27 beynəlxalq mükafat və sertifikat:** ("Dövlət sektorunda transformasiyaya görə beynəlxalq mükafat", "Ən Yaxşı Pensiya Fondu", "2025-ci ilin Ən Yaxşı Sosial Təminat Qurumu", "Avrasiya regionu üzrə 2025-ci ilin Pensiya Xidmətləri İnnovatoru" mükafatları, 3 BSTA sertifikatı və s.);
- DMA — **13 beynəlxalq mükafat və sertifikat:** ("2025-ci il üzrə Dövlət Məşğulluq Xidmətində Mükəmməllik", "Məşğulluq Xidmətlərində Ən Yaxşı Texnoloji İnnovasiya", "Avropanın ən yaxşı Dövlət Məşğulluq Xidməti Təminatçısı" mükafatları, 1 İSO, 1 İESE sertifikatı və s.);
- Milli Observatoriya — **3 beynəlxalq mükafat:** ("Sosial Rifah və Müdafiə Sahəsində Ən Yaxşı Dövlət Qurumu", "Asiyanın əmək bazarı üzrə ən yaxşı təşkilatı" mükafatları və s.);
- SXA — **2 beynəlxalq mükafat:** ("Asiyanın Seçilən Sosial Xidmət Agentliyi" və "Asiya Uşaq İnkişafı Mükəmməlliyi" mükafatları);
- DTSERA — **1 beynəlxalq mükafat:** ("İlin Rəqəmsal Layihəsi" mükafatı);
- DOST — **1 beynəlxalq sertifikat:** (1 BSTA sertifikatı).

# ELEKTRONLAŞMA və İNNOVATİV HƏLLƏR

"AR Prezidentinin 2019-cu il 15 aprel tarixli 634 nömrəli Fərmanı ilə Nazirliyin "Mərkəzləşdirilmiş elektron informasiya sistemi haqqında Əsasnamə" və "e-sosial" internet portalı haqqında Əsasnamə" təsdiq edilmişdir.

Milli Məlumat Mübadiləsi Platforması vasitəsi ilə daxil olan vətəndaş müraciətləri **60 milyon**

Elektron xidmətlərə müraciət **27 milyon**

"e-sosial.az" portalından istifadə **17 milyon**

**MEİS-ə edilmiş cəmi e-sorğu və müraciətlərin sayı**

**458 milyon**

Qurumlarla edilmiş inteqrasiya vasitəsi ilə MEİS-ə sorğu **353 milyon**

Elektron arayış **0,7 milyon**

Hesabat dövrü üzrə — Proaktiv təyinat — **258 min**

Hesabat dövrü üzrə — e-SSN xidməti — **114 min**

# POSTMÜHARİBƏ DÖVRÜNDƏ SOSİAL DƏSTƏK TƏDBİRLƏRİ

## Əhatə olunub: 132 min unikal şəxsə 411 min xidmət

Şəhid ailəsi üzvləri və müharibə əlilləri, həmçinin müharibə veteranı olan 106 min şəxsə 120 min sosial ödəniş təyin olunub.

4,5 min şəxsə əlillik təyinatı aparılıb.

25,4 min şəxsə birdəfəlik ödəmə təyin olunub.

VƏM-lər vasitəsilə 134 min şəxsə birbaşa xidmət göstərilib.

29 min şəxs üçün məşğulluq tədbirləri görülüb, onlardan 13,5 min şəxs özünüməşğulluq proqramına cəlb edilib.

11 min şəxsə 96 min reabilitasiya xidməti göstərilib, həmçinin 496 hərbçi 619 ədəd yüksək texnologiyalı protezlə təmin edilib.

7,2 min mənzil şəhid ailələri, müharibə əlilləri və həssas təbəqədən olan digər şəxslərə təqdim edilib. İndiyədək imtiyazlı şəxslərə 16 min mənzil verilib.

567 avtomobil müharibə əlillərinə təqdim edilib. İndiyədək imtiyazlı şəxslərə 7,7 min avtomobil verilib.

# DOST KONSEPSİYASI

**Vətəndaş məmnunluğu** **98,6%**

## DOST mərkəzləri

**(14 istiqamət üzrə 162 xidmət)**

**1 SAYLI BAKI DOST MƏRKƏZİ**

**2 SAYLI BAKI DOST MƏRKƏZİ**

**3 SAYLI BAKI DOST MƏRKƏZİ**

**4 SAYLI BAKI DOST MƏRKƏZİ**

**5 SAYLI BAKI DOST MƏRKƏZİ**

**ABŞERON DOST MƏRKƏZİ**

**QARABAĞ REGİONAL DOST MƏRKƏZİ**

ŞUŞA DOST FİLİALI

KƏLBƏCƏR DOST XİDMƏT MƏNTƏQƏSİ

FÜZULİ DOST XİDMƏT MƏNTƏQƏSİ

AĞALI KƏNDİNDƏ İLK "SMART DOST" XİDMƏT MƏNTƏQƏSİ

## Könüllü DOST proqramı




**Cəmi 4,1 mln. nəfər**

Xidmət göstərilənlər

**Hesabat dövrü ərzində 887 min nəfər**

Orta günlük xidmət sayı – 3 709

Xidmət müddəti – 7 dəqiqə 25 saniyə

**Cəmi 8,3 mln. zəng**

DOST 142 Çağrı Mərkəzi

**Hesabat dövrü ərzində 1,5 mln. zəng**

Orta gündəlik cavablandırılan zəng sayı – 6 374

Xidmət müddəti – 2 dəqiqə 43 saniyə

# DOST İNKLÜZİV İNKİŞAF və YARADICILIQ MƏRKƏZİ

2025-ci il ərzində **Mərkəz və onun filiallarında** müxtəlif yaradıcılıq istiqamətləri üzrə ümumilikdə ***280-dən çox*** benefisiar təlim, habelə tədris prosesinə cəlb olunub, onların yaradıcılıq potensialının, müvafiq təlim sahələri üzrə bilik və bacarıqlarının artırılması istiqamətində tədbirlər həyata keçirilib.

## Həyata keçirilmiş tədbirlər

2025-ci il ərzində Mərkəz və onun filiallarında ümumilikdə **170-dən çox** tədbir keçirilib.

**19.03.2025** Mərkəzdə Novruz bayramına həsr olunmuş “Yeni gün” adlı bayram tədbiri keçirilib;

**04.05.2025** Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzini ziyarət ediblər;

**16.05.2025** Mərkəzdə Azərbaycanın ilk inklüziv teatrı olan ƏSA Teatrının təqdimatında “Axtarış” tamaşasının premyerası olub;

**18.06.2025** Mərkəzin benefisiarlarının rəsm əsərləri Cənubi Koreyada beynəlxalq sərgidə nümayiş etdirilib;

**21-22.09.2025** “Osaka, Kansai Ekspo 2025” dünya sərgisində Mərkəzin benefisiarlarının əl işlərindən ibarət sərgi və konsert proqramı təqdim olunub;

**25.10.2025** Mərkəzin benefisiar və təlimçilərinin ifasında Bakı Caz Festivalının açılışına start verilib;

**28.10.2025** Ağdaşda ilk dəfə keçirilən “Heyva Festivalı”nda Mərkəzin benefisiar və təlimçilərinin ifasında konsert proqramı, habelə əl işlərindən ibarət sərgi və master-klass nümayiş etdirilib;

**05.11.2025** Mərkəzdə tarixi Zəfərimizin 5 illiyinə həsr olunmuş "Qələbənin işığında" mövzusunda sərgi və konsert proqramından ibarət tədbir keçirilib;

**27.12.2025** Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Alena Əliyeva DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzini ziyarət ediblər.







# SOSİAL İSLAHAT PAKETLƏRİ

**5 sosial islahat paketi üzrə illik əlavə maliyyə vəsaiti: 4 mln. nəfər – 8 mlrd. manat**

**Pensiyaların indeksasiyası nəzərə alınmaqla 3 mln. nəfərə - 1,4 mlrd. manat**

## 2025-ci il üzrə V sosial islahat paketi:

**Minimum əməkhaqqı – 16% artım (345 manatdan 400 manata)**
- ❖ 700 min şəxsə (o cümlədən 330 min özəl sektor)
  - VTC əsasında əməkhaqqı alanlar – 270 minə yaxın şəxs
  - Bir sıra təşkilatlar – 4 min nəfər

**Hərbi qulluqçuların və xüsusi rütbəli şəxslərin aylıq vəzifə maaşları – 10% artım**

**Minimum pensiya – 14% artım (280 manatdan 320 manata)**

**Əmək pensiyalarının indeksasiyası – 8,1%**

**Pensiya kapitallarının indeksasiyası – 2,2%**

**Sosial müavinət və təqaüd ödənişləri – 12% artım**

**Tələbə təqaüdü – 10% artım**

**Ölkə üzrə yaşayış minimumu və ehtiyac meyarı:**
**2025 – 285 manat (5,6% artım);**
**2026 – 300 manat (5,3% artım).**

# ƏMƏK MÜNASİBƏTLƏRİ

**Əmək müqavilələri – 1 895 min**
2024-cü il ilə müqayisədə
22 min və ya 1,2% artım

**Dövlət sektoru – 861 min**

**Özəl sektor – 1 034 min**
2024-cü il ilə müqayisədə
48 min və ya 4,9% artım

2025-ci ildə özəl sektorda aktiv əmək müqavilələrinin sayı ilk dəfə olaraq 1 milyon həddini keçib.

Əmək müqavilələrinin **96%-ni** elektron əmək müqavilələri (**1,8 milyondan çox**) təşkil edib.

10%

Artım

## ƏMƏKHAQQI FONDU

**6,4%**
DÖVLƏT SEKTORUNDA

**13%**
ÖZƏL SEKTORDA

# MƏŞĞULLUQLA BAĞLI TƏDBİRLƏR

**İşlə təmin olunma**
189 min nəfər

**İctimai iş yerləri**
7 min nəfər

**Əməkhaqqının birgə maliyyələşdirilməsi**
1,8 min nəfər

**Kvota üzrə işə düzəlmə**
1,8 min nəfər

**Peşəyönümlü xidmətlərə cəlb olunma**
343 min nəfər

**Peşə hazırlığına cəlb olunma**
18,4 min nəfər

**İşsizlikdən sığorta ödənişi**
10,8 min nəfər

**Orta aylıq məbləğ**
448 ₼

**Əmək yarmarkası**
218

# ÖZÜNÜMƏŞĞULLUQ – 16,8 min nəfər

"Azərbaycanda məşğulluğa dəstək" layihəsi (Dünya Bankı ilə birgə) üzrə özünüməşğulluq proqramına cəlb edilən

**7 969 nəfər**

DMA tərəfindən kənd təsərrüfatı istiqamətində özünüməşğulluq proqramına cəlb edilən

**8 769 nəfər**

Digər layihələr üzrə özünüməşğulluq proqramına cəlb edilən

**89 nəfər**



# BÖYÜK QAYIDIŞ

- 2023-cü ilin 1 yanvar tarixindən etibarən Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssisə ilkin maddi-məişət şəraitinin dəstəklənməsi üçün birdəfəlik sosial müavinət təsis edilib və məbləği **600 ₼** olaraq müəyyən edilib;

- İşğaldan azad olunmuş ərazilərdə peşə hazırlığının təşkilinin stimullaşdırılması üçün müəyyən olunmuş adambaşına maliyyələşdirmə məbləğlərinə **20%** əlavə tətbiq edilir;

- **130 mindən çox şəxsin** məlumatları elektron təhlil edilib, məskunlaşacaq ailələrlə köçdən əvvəl görüşlər keçirilib, onların məşğulluq imkanları qiymətləndirilib, fərdi məşğulluq proqramları tərtib olunub, **14 mindən çox şəxslə** müsahibələr aparılaraq işəgötürənlərlə əlaqələndirilib;

- **26 əmək yarmarkası** keçirilib (**10** – Laçın şəhərində, **5** – Cəbrayıl şəhərində, **3** – Şuşa şəhərində, **2** – Füzuli şəhərində, **2** – Xankəndi şəhərində, **2** – Zəngilan şəhəri Ağalı kəndində, **1** – Zəngilan şəhərində, **1** – Ağdam şəhərində);

- Ümumilikdə **6 169 nəfər** ixtisassız şəxs təlimlərə cəlb olunub (**3 128 nəfər** peşə hazırlığı, **3 041 nəfər** BƏT-in "Öz biznesinə başla və inkişaf etdir" təlimləri);

- Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məskunlaşan əhali üzrə iqtisadi fəal əhalinin **90,2%-nin** məşğulluğu təmin edilib;

- 56 dövlət qurumu ilə iş aparılıb, məskunlaşmış və məskunlaşacaq şəxslərin məşğulluqlarının təmin olması ilə bağlı ərazidə fəaliyyəti olan dövlət qurumları və onların podratçı şirkətləri ilə **21 görüş** keçirilib (o cümlədən hesabat dövründə **12 görüş**);

- İşğaldan azad olunmuş ərazilərin sakinlərinə özünüməşğulluq proqramı çərçivəsində avadanlıqların təqdim edilməsi tədbirinə KİV çəkilişi, Laçın və Xocalıda qurulmuş təsərrüfatlara mediaturlar, Qarabağ PHM-ə isə özəl tədris müəssisələri və QHT nümayəndələri üçün infotur təşkil olunub.

# SOSİAL SIĞORTA, ƏHALİYƏ ÖDƏNİŞLƏR

2024-cü il ilə müqayisədə 1 068 mln. ₼ və ya 15% artım

**DSMF gəlirləri 8 089 mln. ₼**

**MDSS hesabına – 6 453 mln. ₼**
2024-cü il ilə müqayisədə 701 mln. ₼ və ya 12% artım

**Dövlət öhdəlikləri üzrə ayrılan vəsait: 1 600 mln. ₼**

**Sair daxilolmalar 36 mln. ₼**

2024-cü il ilə müqayisədə 629 mln. ₼ və ya 9% artım

**DSMF xərcləri 7 518 mln. ₼**

**Əmək pensiyaları – 7 111 mln. ₼**
2024-cü il ilə müqayisədə 616 mln. ₼ və ya 9% artım

**MDSS hesabına müavinətlər 173 mln. ₼**

**Digər ödənişlər 234 mln. ₼**

**Xərclərin 97%-ni (7 284 mln. ₼) əhaliyə ödənişlər təşkil edir.**

Son 7 ildə əhaliyə ödənişlər **3,7 mlrd. ₼** (2025-ci ilin məlumatları ilə 2018-ci ilin faktiki məlumatlarının müqayisəsi) artıb.

Dövlət öhdəliklərinin maliyyələşdirilməsi üçün Dövlət büdcəsindən ayrılan vəsaitin Fondun gəlirlərindəki payı **38%**-dən (01.01.2018-ci il tarixinə) **20%**-ə (2025-ci ilin büdcəsi üzrə) enib.

# ƏMƏK PENSİYALARI

**Pensiyaçıların sayı**
**1,1 mln. nəfər**

| *Yaşa görə* | *Əlilliyə görə* | *Ailə başçısını itirməyə görə* |
|---|---|---|
| **710 min nəfər** | **251 min nəfər** | **137 min nəfər** |

**Elektron pensiya təyinatı**
**40,6 min**

| *Yaşa görə* | *Əlilliyə görə* | *Ailə başçısını itirməyə görə* |
|---|---|---|
| **33,9 min** | **3,2 min** | **3,5 min** |

**Pensiyanın orta məbləği**
**(2024-cü il ilə müqayisədə)**

**Bütün növ pensiyalar üzrə** — **543 ₼ (9% artım)**

**Yaşa görə pensiya** — **578 ₼ (9% artım)**

**Əmək pensiyalarının məbləği 01.01.2025-ci il tarixindən indeksasiya edilərək 8,1% artırılmış və ödənilmişdir.**

**Əhatə dairəsi**
**1,1 mln. pensiyaçı**

**İllik:**
**(indeksləşmə və minimum pensiyanın artımı üzrə)**
**520 mln. ₼ əlavə vəsait**

# SOSİAL ÖDƏNİŞLƏR

## MÜAVİNƏT, PREZİDENT TƏQAÜDÜ VƏ ÜDSY

- Dövlət büdcəsi hesabına müavinət alanlar:
  - Aylıq müavinət – **471 min nəfər**
  - Birdəfəlik – **58 min nəfər**
- MDSS hesabına müavinət alanlar – **178 min nəfər**
- Prezident təqaüdü alanlar – **407 min nəfər**
- ÜDSY alanlar – **76 min ailənin 336 min ailə üzvü** (ailəyə düşən orta aylıq məbləğ – **422 ₼**)
- e-müavinət və e-təqaüd – hesabat dövründə **158 min e-təyinat**

**Müavinət ödənişi:**
**90 mln. ₼ / 8% artım**
**1 171 mln. ₼**

**Təqaüd ödənişi:**
**61 mln. ₼ / 9% artım**
**756 mln. ₼**

**ÜDSY ödənişi:**
**420 mln. ₼**

**Xərc**
(2024-cü il ilə müqayisədə)

**Ölkə başçısının 22.12.2025-ci il tarixli Sərəncamı ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə ÜDSY alan ailələrə 200 manat məbləğində birdəfəlik maddi yardım verilib (ayrılan vəsait 15,3 mln. manat).**

# SOSİAL XİDMƏT SAHƏSİNDƏ GÖRÜLƏN İŞLƏR

- Fəaliyyət göstərən **21** sosial xidmət müəssisəsində həssas əhali qruplarından olan **3,3 min şəxsə** sosial xidmət göstərilib;
- Sosial cəhətdən həssas təbəqədən olan ailələrə **400 mənzil** verilib (ümumilikdə **16 min mənzil**);
- **1,6 min** imtiyazlı şəxs sanatoriya-kurort putyovkası ilə təmin olunub;
- **2 092 şəhid ailəsi üzvü** vəsiqəsi və **245 əmək veteranı** vəsiqəsi təqdim olunub;
- **2,1 min** əlilliyi olan şəxsə sosial-məişət problemlərinin həlli ilə bağlı birdəfəlik maddi yardım verilib;
- Ahıl şəxslərə, eləcə də əlilliyi müəyyən edilmiş **4 min şəxsə** evdə (səyyar) sosial xidmətlər göstərilir;
- Penitensiar Xidmətin 22 cəzaçəkmə müəssisəsində və 3 istintaq təcridxanasında keçirilmiş tədbirlərdə cəzasının bitməsinə 3 ay qalmış **602 şəxs** və cəza çəkməkdən azad edilmiş **480 şəxslə** sosial-psixoloji adaptasiya işi aparılıb;
- Probasiya xidməti nəzarətində olan **373** şəxslə sosial-psixoloji adaptasiya işi aparılıb;
- Əlilliyi olan şəxslərin Peşə-Əmək Reabilitasiya Mərkəzində **343 nəfər** (**102 nəfər** sertifikat almışdır) əlilliyi olan gənc peşə hazırlığı kurslarına cəlb olunub;
- Sosial sifarişlər çərçivəsində uşaqlar üçün **30** və ahıllar üçün **5** günərzi qayğı mərkəzi, həmçinin əlilliyi olan uşaqlar üçün **27** reabilitasiya mərkəzi fəaliyyətə başlayıb, ümumilikdə **2,7 min şəxsə** sosial xidmətlər göstərilib;
- Sosial-reabilitasiya istiqamətində fəaliyyət göstərən **5** ixtisaslaşmış sosial xidmət mərkəzi və **1** sosial xidmət kabineti üzrə **672 şəxsə** xidmət göstərilib;
- **255** repatriasiya edilmiş şəxsin sosial reinteqrasiyası və sosial reabilitasiyası həyata keçirilib;
- "Təhsildə sosial iş" layihəsi çərçivəsində **1 140 məktəbə** səfər olunaraq ilkin və təkrar monitorinq prosesi həyata keçirilib, həmin məktəblərdə **1 392** nəfər böhran vəziyyətində olan uşağın qiymətləndirilməsi aparılıb;
- Ölkə üzrə əlilliyi müəyyən edilmiş uşaqların sosial xidmətlərə olan ehtiyaclarının müəyyənləşdirilməsi məqsədilə **7 min** uşaq qiymətləndirilib.

# ƏLİLLİKLƏ BAĞLI TƏDBİRLƏR

**Əlillik**

**54,5 min**
Təyinat

13% artım

*(2024-cü il ilə müqayisədə)*

**İlkin əlillik**

**25,3 min**
Təyinat

6% artım

*(2024-cü il ilə müqayisədə)*

**Təkrar əlillik**

**29,2 min**
Təyinat

20% artım

*(2024-cü il ilə müqayisədə)*

**Göndərişlər (Forma 88)**




**74 min ədəd**

**142 min nəfər**

Əlilliyi olan şəxsə reabilitasiya xidmətləri göstərilib.

**13,7 min nəfər**

Əlilliyi olan şəxsə **212 min ədəd** reabilitasiya vasitəsi verilib.

# ÖVLADLIĞAGÖTÜRMƏ ilə bağlı TƏDBİRLƏR

**Sosial xidmət müəssisələrində məskunlaşmış valideyn himayəsindən məhrum uşaqların sayı**
**1 272**

**734** (oğlan)
**538** (qız)

Sağlam – **921**
Əlilliyi müəyyən edilmiş – **257**
Səhhətində problem olan – **94**

Övladlığa verilmiş uşaqların sayı – **149**

**78** / **71**

Monitorinq sayı – **1 183**

Himayədar ailəyə verilmiş uşaqların sayı – **40**

**20** / **20**

Monitorinq sayı – **516**

Müəssisələrdən öz ailələrinə reinteqrasiya tədbirləri nəticəsində geri qaytarılmış uşaqların sayı – **176**

Nazirliyin qərarı ilə:

- **296 uşaq** müəssisəyə yerləşdirilmiş,
- **29 uşaq** 18 yaşı tamam olduğuna görə müəssisəni tərk etmiş,
- **275 uşaq** ailə himayəsində saxlanılmışdır.

# BEYNƏLXALQ ƏLAQƏLƏR

## Xarici dövlətlərlə əlaqələr

- 17.04.2025-ci il - Azərbaycan - Sloveniya Birgə İşçi Qrupunun ilk iclası;
- 01-03.09.2025-ci il - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi nazirinin rəhbərlik etdiyi nümayəndə heyətinin Ankaraya səfəri çərçivəsində ƏƏSMN və Türkiyə Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlıq üzrə Birgə Daimi Komissiyanın 12-ci iclasının Protokolu və 2026-2027-ci illər üzrə Tədbirlər Planı, həmçinin Türkiyə Respublikasının Ailə və Sosial Xidmətlər Nazirliyi tərəfindən hazırlanmış "Himayədar ailə ilə bağlı Nazirlər Bəyannaməsi" imzalanıb;
- 16.09.2025-ci il - ƏƏSMN ilə Birləşmiş Ərəb Əmirliklərinin İnsan Resursları və Əmirlikləşmə Nazirliyi arasında işçi qüvvəsinin mütəşəkkil qaydada müvəqqəti işə cəlb olunması sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb;
- ƏƏSMN ilə Özbəkistan Respublikasının Prezidenti yanında Milli Sosial Müdafiə Agentliyi və Belarus Respublikasının Əmək və Sosial Müdafiə Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumlarının icrası məqsədilə tədbirlər planları imzalanıb;
- Əməkdaşlıq haqqında sazişlərin və memorandumların icrası ilə bağlı çoxsaylı səfərlər, təcrübə və məlumat mübadiləsi tədbirləri həyata keçirilib;
- Hesabat dövrü ərzində Türkiyə, Pakistan, Özbəkistan, Macarıstan, Belarus, İsrail, Ukrayna, Sloveniya, Yunanıstan, Monteneqro, Mərakeş, Sudan, Şimali Kipr, Serbiya, Fələstin, Qazaxıstan və Banqladeşin rəhbər vəzifəli şəxsləri ilə ümumilikdə 33 görüş keçirilib.

## Hesabatlar

- Beynəlxalq Əmək Təşkilatının 20 Konvensiyasının Azərbaycan Respublikasında tətbiqinə dair ölkə hesabatları BƏT-ə təqdim olunub;
- Avropa Sosial Xartiyasının Azərbaycan Respublikası tərəfindən ratifikasiya edilməmiş maddələri üzrə növbəti hesabat Avropa Şurasına təqdim olunub;
- Beynəlxalq təşkilatlar tərəfindən və ölkə adından hazırlanan 32 hesabata aidiyyəti üzrə ƏƏSMN-nin məlumatları və şərhləri göndərilmişdir.

## Beynəlxalq təşkilatlarla əlaqələr

- 13-15.04.2025-ci il - Beynəlxalq Əmək Təşkilatının Baş direktoru Jilber Hunqbonun rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycan Respublikasına səfəri təşkil olunub;
- 29.05.2025-ci il - Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyası ilə Nazirliyin tabeliyində DSMF-nin birgə təşkilatçılığı ilə "Müasir dünyanın çağırışları kontekstində sosial müdafiə sistemlərinin uyğunlaşdırılması" mövzusunda konfrans keçirilib;
- 03-06.06.2025-ci il - Əmək və əhalinin sosial müdafiəsi nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti Beynəlxalq Əmək Konfransının 113-cü sessiyasında iştirak edib;
- 23-24.09.2025-ci il - Bakıda İƏT Əmək Mərkəzinin İcraiyyə Şurasının iclası, «Dəyişən İş Dünyasında İnnovativ Əmək və Məşğulluq Strategiyaları: Qlobal Çağırışlar – Milli Həllər» mövzusunda dəyirmi masa və İƏT Əmək Mərkəzinin Baş Assembleyasının 2-ci sessiyasına hazırlıq iclası keçirilib;
- 30.09.2025-ci il - Bakı İqlim Həftəsi çərçivəsində keçirilmiş tədbirlərdə əmək və əhalinin sosial müdafiəsi naziri və nazir müavini iştirak edib;
- 14-17.10.2025-ci il - Əmək və əhalinin sosial müdafiəsi nazirinin rəhbərlik etdiyi nümayəndə heyəti Qətərin Doha şəhərində keçirilmiş İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin əmək nazirlərinin 6-cı konfransında iştirak edib;
- 24.10.2025-ci il - Bakıda Nazirliyin tabeliyində DOST Agentliyinin təşkilatçılığı ilə "SocGov 2025: Süni intellekt insan və transformasiya üçün" mövzusunda beynəlxalq konfrans keçirilib;
- 04-06.11.2025-ci il - Qətərin paytaxtı Doha şəhərində BMT-nin Sosial İnkişaf üzrə İkinci Dünya Sammitində və sammit çərçivəsində təşkil olunmuş tədbirlərdə Azərbaycan nümayəndə heyətinin tərkibində əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini iştirak edib;
- 25.11.2025-ci il - BƏT ilə "Azərbaycan Respublikasının 2025-2029-cu illər üçün Layiqli Əmək üzrə Ölkə Proqramı" imzalanıb;
- 05.12.2025-ci il - Bakıda Türk Dövlətləri Təşkilatının əmək, məşğulluq və sosial müdafiə nazirlərinin birinci iclası keçirilib;
- Hesabat dövrü ərzində BƏT və ƏƏSMN-nin birgə təşkilatçılığı ilə Bakıda müxtəlif mövzularda 4 tədbir keçirilib;
- 2025-ci il ərzində beynəlxalq təşkilatların rəhbər vəzifəli şəxsləri ilə ümumilikdə 21 görüş keçirilib, eləcə də ölkəmizdə keçirilmiş 9 yüksək səviyyəli beynəlxalq tədbirdə iştirak təmin edilib.

# SƏNƏD DÖVRİYYƏSİ - VƏTƏNDAŞ MÜRACİƏTLƏRİ

**Nazirlik üzrə sənəd dövriyyəsinin həcmi**
**1,4 milyon**

**Daxil olan**
**671 min**

**Vətəndaş müraciətləri**
**500 min**

**Funksional sənəd**
**171 min**

**Xaric olan**
**694 min**

**Vətəndaş müraciətləri**
**532 min**

**Funksional sənəd**
**162 min**

**Qəbulda olmuş vətəndaşlar və qeydə alınmış birbaşa vətəndaş müraciətləri**

**1,9 milyon**

Nazirliyin Aparatının,
strukturuna daxil olan və tabeliyində olan
qurumların, həmçinin yerli bölmələrin
rəhbər şəxsləri
tərəfindən qəbul edilmiş vətəndaşlar
**191 min**

Nazirliyin Aparatında,
strukturuna daxil olan və tabeliyində olan
qurumların qəbul otaqlarında, yerli
bölmələrində və "DOST" mərkəzlərində
qeydə alınmış birbaşa vətəndaş müraciətləri
**1,7 mln.**

# İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR

Tədbirlər (mediatur, mətbuat konfransları, mənzil və avtomobil təqdimetmə və s.) 613

Press-reliz 2,6 min

Videosüjet 3,3 min

Poster və infoqrafikalar 4,7 min

**Sosial şəbəkələrdə izləyici sayı**

**1,4 mln. nəfər**

- 15 min
- 494 min
- 42 min
- 400 min
- 126 min
- 155 min
- 193 min

Ənənəvi və sosial mediada dərc olunmuş məlumat 30 mindən çox

Sosial şəbəkələrdə cavablandırılan sorğular 85 min

KİV sorğuları 2,2 min

Azərbaycan Respublikası
Əmək və Əhalinin
Sosial Müdafiəsi Nazirliyi

**BAKI, AZƏRBAYCAN**
**2026**